## Həmkarlar hesabat verir

İyun ayının 14-də Vergilər Nazirliyində Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) V hesabat-seçki konfransı keçirilmişdir. Tədbirdə çıxış edən BHİK-in sədri Məmməd Məmmədov Vergilər Nazirliyinin yaradıldığı dövrdən keçən müddət ərzində nazirliyin rəhbərliyinin gərgin əməyi və əməli fəaliyyəti sayəsində həyata keçirilən ardıcıl və məqsədyönlü təbirlər nəticəsində respublikanın vergi sistemində böyük nailiyyətlər və yüksək göstəricilər əldə edildiyini bildirmişdir. O cümlədən vergi orqanlarında əmək intizamının möhkəmləndirilməsi, kadr siyasətinin gücləndirilməsi, kadrların hazırlanması, seçilməsi, yerləşdirilməsi, əməyin mühafizəsi, yüksək əmək şəraitilə təmin edilməsi sahəsində faydalı işlərin görüldüyü və böyük uğurlara imza atıldığı diqqətə çatdırılmışdır.

Vətəndaşların hüquqlarının qorunması və əmək müqavilələrinə xitam verilməsi sahəsində nazirlik tərəfindən Əmək Məcəlləsində nəzərdə tutulmuş əsaslara düzgün istinad edildiyi, işçinin təqsiri və məsuliyyəti hallarının obyektiv və qərəzsiz araşdırıldığı bildirilmişdir. Kadr məsələlərinə toxunan Məmməd Məmmədov Vergilər Nazirliyində aparılan islahatlarla əlaqədar, nazirlikdə işçilərin bilik səviyyələrinin və peşəkarlıq qabiliyyətlərinin yoxlanılması məqsədilə keçirilən attestasiya komissiyasında BHİK-in iştirakının təmin edildiyini konfrans iştirakçılarının nəzərinə çatdırmışdır. İşə qəbulun test imtahanı formasında keçirilməsi nəticəsində nazirliyin kadr siyasətində çox ciddi və köklü dəyişikliklər baş verdiyini, test imtahanları zamanı heç bir haqsızlığa yol verilmədiyi, imtahandan keçənlərin vergi orqanlarında işlə təmin olunduğu haqqında tədbir iştirakçılarına məlumat verilmişdir.

Xəstəlik vərəqələri ilə bağlı müavinətlərin ödənilməsinə toxunan M.Məmmədov bununla əlaqədar hesabat dövrü ərzində komitə tərəfindən bir neçə dəfə yerlərdə baxış keçirildiyini və bu sahədə çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görüldüyünü bildirmişdir. Xəstəlik vərəqələrinin tərtibi zamanı itirilən əmək qabiliyyəti günlərinin düzgün sayı, iş stajının düzgün hesablanması və staja görə faiz dərəcələrinin düzgün müəyyən edilməsinin vacibliyi vurğulanmışdır.

Sanatoriya və istirahət evlərinə yollayışların təşkili sahəsində işçilərin arzu, təklif və istəkləri nəzərə alınaraq, hesabat dövrü ərzində ümumilikdə müxtəlif sanatoriya və istirahət zonalarına 244 ədəd yollayış alındığı bildirilmişdir. Bu dövrdə 315 nəfər aztəminatlı işçiyə yardım edilmiş, 244 nəfər işçi istirahət evlərinə və müalicəvi sanatoriyalara yollayışla təmin olunmuşdur. BHİK tərəfindən hesabat dövrü ərzində bayramlar münasibətilə vergi işçiləri üçün mədəni-kütləvi tədbirlər həyata keçirilmiş, vergi əməkdaşlarının arzu və istəyi ilə onların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə müxtəlif istirahət zonalarına 150 nəfərə yaxın vergi əməkdaşının 3 günlük ekskursiyaları təşkil edilmişdir.

Məmməd Məmmədov nazirlikdə və onun struktur bölmələrində işçilərin məzuniyyət və istirahət hüquqlarının yüksək səviyyədə təmin edildiyini, məzuniyyət qrafiklərinin tələb olunan səviyyədə Əmək Məcəlləsinə müvafiq qaydada təşkil edildiyini söyləmişdir.

Komitə sədri qaçqın və məcburi köçkünlər məsələsinin Vergilər Nazirliyinin rəhbərbərliyi tərəfindən daim diqqət mərkəzində saxlandığını və 1995-ci ildən başlayaraq hər il bayramlar ərəfəsində nazirlik tərəfindən Ağcabədi rayonunda məskunlaşmış 1400 nəfərə yaxın qaçqın və köçkün ailələrinə humanitar yardımlar edildiyini bildirmişdir.

Tədbirdə vətəndaş müraciətləri məsələsinə də toxunulmuş, dövlət başçısı cənab İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, hər bir ərizə və şikayətin arxasında canlı insan dayandığı nəzərə alınaraq, vətəndaşların ərizə və şikayətlərinə vaxtında baxılması işinin təkmilləşdirilməsi, bu sahədə süründürməçilik meyillərinə son qoyulmasının günümüzün ən vacib və təxirəsalınmaz vəzifələrindən olduğu vurğulanmışdır. M.Məmmədov son illər nazirlikdə vətəndaş müraciətlərinin araşdırılmasına diqqətin artırıldığını, vətəndaşların vergi orqanlarında qəbulu üçün xüsusi şöbənin və qəbul otaqlarının yaradıldığını, rəhbər vazifəli şəxslərlə video qəbulların keçirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırmışdır. Hesabat dövrü ərzində bu sahədə BHİK tərəfindən müəyyən işlərin görüldüyü qeyd olunmuşdur. Vətəndaşlardan, yerli vergi orqanlarından müxtəlif məsələlərlə bağlı daxil olan 670 ərizə və məktuba diqqətlə yanaşılmış və lazımi tədbirlər görülmüşdür. Bu ərizə və məktubların 90%-i müsbət cavablandırılmışdır.

Sahə Kollektiv Sazişin əmək münasibətlərinin tənzimlənməsində tərəflərin qarşılıqlı öhdəliklərini əks etdirən hüquqi sənəd olduğunu vurğulayan M.Məmmədov Vergilər Nazirliyi ilə Dövlət İİXİ Hİ RK-si arasında növbəti - 2010-2013-cü illər üzrə Sahə Kollektiv Sazişi imzalandığını bildirmişdir.

...Sonra Təftiş Komissiyasının sədri Elyar Süleymanov hesabatla çıxış etmişdir. Təftiş Komissiyasının hesabatında komitənin 7 illik fəaliyyəti qənaətbəxş hesab edilmiş, maliyyə vəsaitlərinin təyinatı üzrə xərcləndiyi bildirilmişdir. Daha sonra tədbirdə Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev, Zəngilan Rayon Vergilər Şöbəsinin rəisi Vəzifə Əhmədova, Tədris Mərkəzinin maliyyə-təsərrüfat işləri üzrə rəis müavini Tofiq Tarverdiyev, İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin əməkdaşı Nazim Əhmədov, «Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev, Azərbaycanın Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin I müavini Aidə Əliyeva çıxış edərək, Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin yeddi illik fəaliyyətini və komitənin sədri Məmməd Məmmədovun hesabat çıxışını yüksək qiymətləndirmişlər. Ötən müddət ərzində Həmkarlar Komitəsinin fəaliyyətində böyük naliyyətlərin əldə edildiyi bildirmiş və bu uğurların davamlı olmasını arzulamışlar.

Sonra açıq səsvermə yolu ilə BHİK-in rəhbər işçi orqanlarına seçkilər keçirilmiş, Məmməd Məmmədov yenidən Komitənin sədri seçilmişdir.

Sonda Vergilər Nazirliyinin Aparatının rəhbəri Asif Cahangirov çıxış edərək nazirliyin rəhbərliyi adından Məmməd Məmmədovu yenidən Həmkarlar Komitəsinin sədri seçilməsi münasibətilə təbrik etmiş, komitəyə işlərində uğurlar arzulamışdır.

Qeyd: Vergilər Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi 1993-cü il iyul ayının 15-də keçirilmiş 1-ci təsis konfransının qərarı ilə yaradılmışdır. BHİK sonuncu və sayca IV konfransını 2005-ci ildə keçirmişdir. Ötən yeddi il ərzində ilk həmkarlar təşkilatlarının işinin keyfiyyətcə yaxşılaşdırılması və onların fəaliyyətinin düzgün istiqamətləndirilməsi ilə əlaqədar bir sıra təşkilati tədbirlər həyata keçirilmişdir. Hesabat dövrü ərzində ilk həmkarlar təşkilatlarında iki dəfə hesabat-seçki yığıncaqları keçirilmiş, BHİK-in daimi komissiyaları yaradılmış, 2005-2012-ci illər üçün Komitənin fəaliyyət proqramı, yarımillik və illik iş planları müəyyən edilmişdir. Hesabat dövründə Həmkarlar Komitəsinin 30 iclası keçirilmiş və bu iclaslarda işçilərin sosial, əmək və iş şəraitinin yaxşılaşdırılması və s. bu kimi 130-a yaxın məsələ müzakirə edilərək qərarlar qəbul olunmuş və onların yerinə yetirilməsi üçün lazımi tədbirlər həyata keçirilmişdir.

Arzu İBRAHİMOVA